# İdman xəbərləri

## U-17-dən səfər qələbəsi



AFFA-nın təşkilatçılığı ilə aşağı yaş qrupları üzrə liqalarda növbəti matçlar keçirilib. Gənclər Liqasında "Kəpəz"in qonağı olan "Qəbələ" səfərdən 3 xalla dönüb - 3:1. 21 matçda 55 xal toplayan komandamız 1-ci pillədə qərarlaşıb.

## Pərviz Abdullayev dünya kəmərini qazandı

"Qəbələ" İdman Klubunun təmsilçisi Pərviz Abdullayev növbəti titulunu qazanıb. Əməkdar idman ustası, peşəkar kikboksinq üzrə 5 qat dünya çempionu, Bakıda keçirilən IV İslam Oyunlarının uşu sanda üzrə bürünc mükafatçısı, Kobra ləqəbi ilə tanınan idmançı "ACB KB"nin dünya kəmərinə yiyələnib. 77 kq çəki dərəcəsində çıxış edən kikboksçu bu uğura Rusiyanın paytaxtı Moskvada keçirilən "ACB KB 15" turnirində imza atıb.

Xatırladaq ki, bu qarşılaşma Pərviz Abdullayevin peşəkar karyerasındakı 54-cü döyüşü olub. Abdullayev 23-ü nokautla olmaqla, 47 qələbə qazanıb.

## Poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə aprelin 13-də şəhər 3 nömrəli məktəbdə yaz çağırışına həsr edilmiş "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçrilmişdir.

Yarışın keçirilməsində məqsəd yeniyetmələri vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə vətənə məhəbbət və vətənpərvərlik hissini artırmaq, çağırış və çağırış yaşına qədərki gənclərin hərbi hazırlığını gücləndirmək, idmançılarda yarış təcrübəsini və ustalığı artırmaqdan ibarətdir.

Tədbirdə rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov ölkədə idmana göstərilən dövlət qayğısından danışmış, yarış barədə məlumat verərək idmançılara nailiyyətlər arzulamışdır.

Beynəlxalq poliatlon çoxnövçülüyü assosiasiyasının qaydalarına əsasən 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atma üzrə keçirilən birincilikdə 28 komanda iştirak etmişdir.



Yarışın nəticəsinə əsasən şəhər 3 nömrəli məktəbin komandası I, Soltannuxa kənd məktəbin komandası II və Zarağan kənd 2 nömrəli məktəbin komandası III yeri tutmuşlar.

Qalib komandalara Gənclər və İdman idarəsinin diplomları təqdim edilmişdir.

Birinci yeri tutmuş Qəbələ şəhər 3 nömrəli məktəbin komandası respublika çempionatının zona mərhələsində iştirak etməyə vəsiqə qazanmışdır.

**Elçin OSMANOV,**
**gənclər və İdman idarəsinin**
**aparıcı məsləhətçisi.**
**Səhrab Umuyev (foto).**

# Narkomaniyaya qarşı mübarizə hamının işidir

Gəncliyin fiziki və mənəvi sağlamlığına mənfi təsir göstərən amillərdən biri, bütün dünyanı narahat edən, ən ciddi sosial problemlərdən hesab olunan narkomaniyadır. Müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Mütəxəssislər haqlı olaraq onu xalqın genofonduna sarsıdıcı zərbə vuran, qarşısının alınması böyük çətinliklər, külli miqdarda xərc bahasına başa gələn son dərəcə neqativ bir amil kimi dəyərləndirirlər. Cinayətkar dəstələr pul qazanmaq naminə insanları, xüsusi ilə yeniyetmə və gəncləri «ağ ölümə» aparan vərdişə alışdırırlar. Gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik halları narahatedici, aktual problem olaraq qalır. Birinci ona görə ki, narkotikdən ilk istifadənin əksər halları məhz bu yaş dövründə baş verir, (narkomaniya xəstəliyinin 70 faizə yaxın halları) ikincisi isə narkotik vasitələr inkişafda olan orqanizmə məhvedici təsir göstərir. Narkomaniya asılılığın ən ağır növüdür. Narkomaniya yoluxucu xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötütürldüyündən və eyni şprisdən təkrar istifadə edildiyindən narkomanlar QİÇS və başqa sağalmaz və ya çətin müalicə olunan xəstəliklərə daha çox yoluxurlar. Bir çox valideynlər belə hesab edirlər ki, övladlarının xoşbəxt olması üçün onları maddi cəhətdən təmin etmək, kifayətdir.

Lakin uşağı ilk növbədə tərbiyə etmək, həyata alışdırmaq ona diqqət ayırmaq, onun şəxsiyyətinə səmimi maraq göstərmək, onun həyatında iştirak etmək daha vacibdir. Təəssüflə qeyd etmək lazımdır ki, narkotiklərdən asılılığa təkcə imkanı az olan təbəqənin uşaqları və nəzarətsiz deyil həm də ilk baxışdan ideal, uğurlu sayılan, kifayət qədər imkanlı valideynlərin uşaqları da tutulurlar. Zahirən elitar görünən bir çox ailələrdə uşaq özünü tənha, diqqətdən kənar qalmış və ya əksinə həddsiz diqqətdən ərköyünləşmiş hiss edir. Nəticədə o, xilas və sevinci narkotiklərdə axtarır, lakin dərk etmir ki, müvəqqəti həzzin əvəzini təkcə pulla deyil, həm də sağlamlığının itirilməsi və hətta həyatı bahasına. ödəməli olur. Qeyd etmək lazımdır ki, uşaq üçün ilk nümunə onun valideynləridir. Onlar alkoqol və nikotindən istifadə etməklə narkotikləşməyə öz «töhvələrini» verirlər. Evdəki masanın üzərində olan alkoqollu içkiləri evdəki bayram və ya şənliklə əlaqələndirirlər.

Yeniyetmələr alkoqoldan istifadə etməklə atalarına və ya atalarının dostlarına oxşamağa çalışırlar. Bu bir çox hallarda narkotik asılığın formalaşmasına gətirib çıxarır. Sosioloji rəy sorğularının nəticəsinə əsasən, ailələrdə yetkinlik yaşına çatmayan narkomanların 82 faizi öz narkogen «karyeralarına» böyüklərin məclislərini dəstəkləməklə ev şənliklərindən başlayırlar.

Uşaqlar bizim gələcəyimizdir, onların fiziki mənəvi və psixi sağlamlığını hər birimiz qorumalıyıq.

**Elnur İSGƏNDƏROV,**
**müalicə diaqnostika**
**mərkəzinin uşaq cərrahı.**

# Maraq dünyamız

*✦Tufanın 10 dəqiqəyə hasil etdiyi enerji dünyanın bütün nüvə silahlarının enerjisinə bərabərdir.*

*✦Kolibrilər arxaya uça bilən yeganə quşlardır.*

*✦Kokos adalarında dəniz səviyyəsindən ən hündür yerin hündürlüyü cəmi 5 metrdir.*

*✦Çətirdən ilk dəfə təxminən 3400 il əvvəl Mesapotamiyada rütbənin və fərqliliyin rəmzi kimi istifadə olunub. Bu çətirlər mesapotamiyalıları yağışdan deyil, parlaq günəşdən qoruyurdu.*

*✦Azərbaycanda açılmış ilk yerli səhmdar kommersiya bankı Bakı Tacir Bankı olmuşdur.*

*✦Monaş Universiteti Avstraliyada ilk universitetdir ki, şəhərin və ya ştatın adı ilə deyil, insanın şərəfinə adlandırılmışdır.*

*✦"Oskar" mükafatının ən gənc ulduzu 1934-cü ildə altı yaşlı Şirli Templ olub.*

*✦Rentgen nəticəsində "Mona Liza"nın orijinalından əlavə, üç ilkin variantının olduğu məlum olub.*

*✦Boks idman növü kimi 1900-cü ildə qanuniləşdirilmişdir.*

*✦İnsan tərəfindən yaradılmış ilk güzgü tunc dövrünə gedib çıxır. O zaman səthi hamarlanmış metal lövhələrdən güzgü kimi istifadə edilirdi.*

*✦ Quşların bədən temperaturu insan bədən temperaturundan 7-8 dərəcə çox olur.*

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 noyabr 2001-ci il tarixli 15 saylı qərarı ilə Yenikənd kənd sakini **Məmmədov Yaqub Feytulla oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 111 A nömrəli (kod 40807048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Yenikənd kənd sakini **Məmmədova Qəndəf Zakir qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 171 nömrəli (kod 40607048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə sakini **Əzimov Cəlal Vahid oğluna** verilmiş JN seriyalı 2067 A nömrəli (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən Vəndam qəsəbə sakini **Əzimov Calal Vahid oğluna** 08 sentyabr 2006-cı ildə verilmiş MH seriyalı 0001216 nömrəli (qeydiyyat nömrəsi 190600881) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Məmmədağalı kənd sakini **Məmmədov Sərvər Məhəmməd oğluna** verilmiş JN seriyalı 0009 nömrəli (kod 40603048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Məmmədov Ramiz Məmməd oğluna** verilmiş JN seriyalı 1926 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Mustafayeva Minirə Ağabala qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 2853 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam (kənd) qəsəbə sakini **Salehova Yengə Səfəralı qızına** verilmiş JN seriyalı 058 A seriyalı (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1769